Niyazi Mehdi

# YƏHUDİ DİNİ

qanun nəşriyyatı

**Niyazi Mehdi** **YƏHUDİ DİNİ**
Bakı, Qanun Nəşriyyatı, 2024, 168 səh.

Janr: non-fiction/dini
Ölçü: 120x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 17.01.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Redaktor: | Nərmin Kamal |
| Korrektor: | Əyyar Tahir |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |
| | |
| Çapçı: | Vasif Kərimov |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-875-6

© Qanun Nəşriyyatı, 2024
© Niyazi Mehdi, 2024

“Qanun” nəşriyyatı dünya dinləri üzrə seriya çap etməyi planlaşdırır. Professor Niyazi Mehdinin “Yəhudi dini” adlanan əsəri bu seriyanın birinci kitabıdır.

Dinlər üzrə bir çox məqalələrin yazarı olan müəllif əsərini azərbaycanlı oxucuların Yəhudiliklə bağlı nələri bilmədiyini gözə alaraq yazıb. Kitaba qoşma kimi yəhudilər haqqında ilginc düşüncələr toplusu əlavə edilib. Bu toplu alimin uzun illər müxtəlif dillərdə oxuduğu kitab və məqalələrdən seçmələrdir.

Kitab geniş oxucu kütləsi tələbələr, ruhanilər üçün faydalıdır.

*Əziz xanımım Dilarə Mehdiyə,*
*əziz nəvəm Dilarə Mehdi Orxan qızına*
*ithaf edirəm.*

## ÖN SÖZ

Dünyada törədici gücü yüksək mexanizmlərdən birini “bölünən hüceyrə prinsipi” adlandırmaq olar. Hüceyrələr bölünüb artdıqları kimi, mədəniyyətlər də nələrisə artırmaq üçün bölünərək çoxalır. Şəhərlər məhəllə-məhəllə bölünə-bölünə genişlənir. Sənətlər ipəkçiliyə, dəmirçiliyə, dabbaqlığa, əttarlığa bölünərək cürbəcürləşir... Düzdür, bu bölünmə tendensiyasına bir az sonra birləşmə, qovuşma tendensiyası da qoşulur və yelləncək kimi bu iki tendensiyanın biri gedəndə, o biri gəlir. Nəsə bölünərək xırdalanır, bu xırdalananlar da qayıdıb yeni düzümdə birləşir. Xalçaçılığın naxışları dəmirçiliklə birləşəndə zərgərlik yaranır. Zərgərliklə dərzilik birləşəndə zər-baftalı paltarlar tikilir.

Hər iki tendensiya həm dində, həm də incəsənətdə var. Bu üzdən, yaranışından dəyişməz qalan din, təriqət yoxdur. Yəhudi kökənli fransız etnoqraf Klod Levi-Stross “isti toplum/soyuq toplum” terminlərini ortaya atmışdı. Təbiət elmlərindən bilirik ki, nəsnədə istilik ar-

tanda molekullar arasında bağlar yumşalır, ona görə də bir-birindən qopmalar artır. Ətirdə molekulların uçması buna örnək. Soyuq nəsnələrdə isə soyuq molekulların bir-birinə bərkişməsini artırdığından duruluq, çürümə, dağılma azalır. Soyuduculardakı yemək buna örnək.

Beləcə, Klod Levi-Stross elmə gətirdiyi metafora ilə göstərmişdi ki, tarixdə yaşayan, yəni yeni olaylar üzündən dönəmdən-dönəmə keçən cəmiyyətlər isti toplumlardır. Dəyişməz qalan insan birlikləri isə soyuq toplumda bulunur. İndi bu terminologiyaya söykənib deyə bilərik ki, tarixi yaşayan, yəni isti toplumlardakı dinlər qaçılmaz olaraq cərəyanlara, təriqətlərə (yollara) bölünür. Dinlərdə konfessiya (latınca ibadət, tapınmaq deməkdir) formalarının çoxalması bundan qaynaqlanır. Beləcə, artım, cürbəcürləşmək bölünən hüceyrə prinsipiylə baş verir.

Bölünmələrlə artım sürəcini anlamaq ağlımızdan iki əməliyyatı, iki eyləmi tələb edir. Birincisi, yeni yaranmış konfessiyanın, təriqətin adını tapmaq və ya qoymaq, ikincisi, bir-birindən qopmuşların ciddi bağlantısı və ya bənzərliyi qalırsa, onları bir ad altında saxlamaq. Bu axırıncı olmasa, bölünmüşlər ətir kimi uçuşub itərlər. İndi deyə bilərik ki, dünyada hansı din aktiv tarixi proses yaşayıbsa, örnəyin, üsyanlarda, vətəni qorumaqda, toplumu yönəltməkdə bulunubsa, qaçılmaz olaraq ilkinliyindən qoparaq bölünən hüceyrə biçimində cürbəcürləşib. Bu

üzdən, ilkin İslama qayıdış kimi çağırışlar səslənsə də, sonradan aydın olub ki, elə bu çağırışların özü Vəhabilik kimi yeni təriqət yaradıb.

Günümüzdə dindəki bölünmələrin şəcərə, qol-budaq kimi mərkəzdənqaçma artımını yığıb-yığışdırmaqdan ötrü onları hansısa ad-anlayış altında saxlamağa gərək yaranıb.

XX yüzildə dədə-baba və ya gələnəksəl dinlərlə yanaşı, krişnaizm,[1] vuduçuluq,[2] tantrizm,[3] şamançılıq kimi çoxlu konfessiyalar yayğınlaşanda belə fikir yarandı ki, demokratiya naminə onları qarğımaq, anafemə (lənətə) tutmaq olmaz.

Ancaq əvəzində onları əsas dinlərlə bərabər tutmaq da olmaz. Əgər onlar əsas dinlərə tay tutulsa, dünya meydanı sahmana salınmamış bazara çevrilər. Hər yerindən duran ağlına gələn ibadət (tapınmaq) formasını icad edib başına adamlar toplayar və bundan mənəvi dünyada xaos yaranar. Bu üzdən bəzi nüfuzlu Xristian, İslam qurumları, eləcə də avtoritetləri belə bir düşüncəyə gəldilər ki, Yəhudiliyi, Xristianlığı, İslamı yerdə qalanlardan

---

[1] Qədim Hindistanda Hinduizmin bir qolu olan Vişnuizmə əsaslanan müstəqil dini ənənələr təlimi – red.

[2] Qərbi Afrika mənşəli animist bir dini təlim – red.

[3] Qədim Hindistanda ilk öncələr qadın tanrılar ayinlərindən və məhsuldarlığın təmin edilməsinə yönəlik cadu mərasimlərindən qaynaqlanan, magik-mistik elementlərlə zəngin özünəməxsus dini hərəkat - red.

"Səmavi din" adı-anlayışı altında ayıraq. Ancaq ad düz deyilsə, anlaşılmazlıq gətirər. Örnəyin, Göy (Səma) Çin dindarlığında da böyük simvoludur. Belədirsə, nəyə görə o, səmavi dinlər sırasında yer almamalıdır?! Türklərdə Tenqriçilik yenə Göylə bağlıdır. "Tanrı" sözünün soy-kökü Göy qübbəsinə gedib çıxır. Belə olanda nəyə görə Tenqriçilik səmavi dinlər sırasında durmasın?!

Sonda tapdılar ki, Yəhudiliyi, Xristianlığı, İslamı "İbrahim dinləri" adı altında birləşdirmək olar, çünki hamısı İbrahimi əcdadları olan peyğəmbər sayır. Adı keçən üç din bir-birini küfr kimi qarğışlayanda, qıranda, sözsüz, onları birləşdirən ad məsələsini yaxın buraxmazdılar. Ancaq XX yüzildə bu üç dinin ilişgiləri xeyli uyqarlaşdı[1] və bunun sonucunda bir ad altında birləşməyə etiraz edən olmadı.

Başqa bir ad da var ki, İbrahim dinlərinə ortaqdır – vəhy dinləri. Bu söz ərəbcə gizlicə, çapuqça, hızlıca, becidcə bildirmək anlamını verir. İslamda Allahın peyğəmbərlərə özünü, istək və umacaqlarını açmasına vəhy deyirlər. Rusca buna *"откровение"*, ingiliscə *"revelation"* deyilir. Bundan "vəhy dinləri" adı yaranıb. Dilimizə bu sözü "bəlirtmə" kimi çevirə bilərik, onda

[1] Anadolu türkcəsində "sivilizasiya" sözünün qarşılığı kimi işlənən "uyqarlıq" sözü Atatürkdən yadigardır. O həmin sözlə türk xalqlarının mədəni gəlişməsində önəmli rol oynamış uyqurlara sonsuz sayğısını bildirib – red.

“bəlirtiləndirən dinlər” alınacaq. Düzdür, gətirdiyimiz sözlər arasında “vəhy” prosesin mistikliyini daha çox sezdirir. Halbuki onun qarşılığı olan rus və ingilis sözləri adi səslənir. Əslində, “bəlirtmək” də adi səslənir. Ancaq bilmək olmaz, bəlkə “vəhy”lə “bəlirtməy”i yan-yana çox işlətsən, birincinin mistikası ona da keçər!...

Pəncabda İslamın və Hinduizmin etgiləri altında Sikhizm adında bir din yaranmışdı. Onun yaradıcısı quru[1] Nanak idi və bu quru da vəhy yolu ilə Tanrıdan bilgi alırdı. Deməli, vəhy dinləri kateqoriyasını götürsək, Sixizmi də İbrahim dinlərinin yanına qoymalıyıq. Göründüyü kimi, dinləri bölgüləndirmək heç də aydın, qrafik cızıqlarla şəkil vermir, çünki dinlər dünyası çox dolaşıq aləmdir. Ancaq bir yolla kateqoriyalara, növlərə böləndə, hər halda bir qədər oriyentirlər verir. Bunun üçün Kant “anlayışın altına salmaq” deyimini işlədirdi – nəyisə anlayışın altına salanda aydınlıq qazanırsan.

Burada bütün kitab boyu bizə gərəkəcək “təbii tarix” və “qutsal (müqəddəs) tarix” anlayışlarını da işıqlandıraq. “Təbii tarix” təbiətşünaslıq qaydalarına söykənir və insan birliklərindəki olayları düşünərkən, İlahi qələmə, iradəyə və ya güclərə üz tutmur. Tarixi təbiətin içindəki hadisələr kimi səbəb-nəticə zəncirində öyrənir. Halbuki müqəddəs tarix əhvalatlara Tanrının yaradıcılığı kimi baxır və tarixdə Onun iradəsini, istəmini görür. Bu ya-

[1] Müəllim

naşmada hər bir olay daha dərin qatların rəmzinə çevrilir. Ən adi görünən hadisə belə, Allah-taalanın nəyi istədiyini, nəyi planlaşdırdığını açan simvol olur. Bu simvolizm ona gətirir ki, müqəddəs tarixdə sonradan olanlar öncədən olanları dəyişdirə bilir, iki olay arasında heç bir körpü olmasa da, bilgi get-gəli kəsilmir.

Yunanca "Bibliya" ("Kitab") adlandırılan dini mətnlər toplusunda verilmiş tarix dünyanın yaranışından və Adəmlə Həvvadan başlayan qutsal tarixdir. Bu üzdən demək olar ki, bütün tarixi sima adlarının mənası açıqdır, çünki onlara qulaq tutub hansısa olayın, hansısa davranışın, hansısa taleyin gizlinlərinə varmaq olar. Örnəyin Adəm ismi torpaq anlamını, Həvva isə həyat anlamını verir. Hər iki ad kosmik yük daşıyır, axı cansız substansiyalar və canlılar bölgüsünü göstərir. Noah/Nuh peyğəmbərin adının anlamı sakitləşdirəndir. Onun oğlu Yafəsin adı "şişirdilmişliyi" bildirir. Beləcə, "Tövrat"da ibranicəyə söykənib yüzlərcə adın anlamını tapmaq olur.

İndi isə oxuculara bir metodoloji nəsnəni aydınlaşdıraq. Əgər dünyada bu qədər din varsa, hansını doğru və yüksək sayırıq? Aristotel məntiqinə dayansaq, hamısı doğru ola bilməz, axı!

"Quran"da Allah-taala deyir ki, biz xalqları bir-birinə sınaq kimi yaratdıq. Bunu götürüb tarixə yanaşsaq, yanaşmamız Qutsal Tarix paradiqminə söykənəcək. Allah-taala müxtəlif dinləri bir-birini sınamaq üçün verir.

Başqa izahlar da ola bilər. Fərabi kimi Ortaçağ müsəlman filosofları dinlərdə savaşın yox, barışın mənəviyyat üçün dəyərini anlayıb demişdilər: Allah-taala Onu bilmək üçün müxtəlif irqlərə onların ruhuna uyğun yollar vermişdir. Bu deyim də Qutsal Tarixin nə olduğunu açır.

Alman filosofu Hegel müqəddəs tarixlə ilgili başqa paradiqmi anladır. Göstərir ki, dünyanı Ruh/Qut belə dəyişdirib gəlişdirir: düşünəndə, dünya bu düşüncələrə uyğun dəyişir. İnsanın düşündükləri, duyğuları üzündə göründüyü kimi, varlıq da onun əsasında duran Ruhun düşünüb tapdıqlarını özündə göstərir. Yəni varlıqda nə səhnədən çıxırsa, nə səhnəyə gəlirsə, Mütləq Qutdan gəlir. O, tutalım, "cəmiyyət" ideyasına gələndə insanlar aləmində cəmiyyət yaranır. Yəni insanlar aləmi Ruhun güzgüsü kimi bu anlayışı yansıdır. Müxtəlif dinlərlə bağlı da Mütləq Ruh elə davranır. Özünü türlü bütlər kimi düşünmək mərhələsində olanda, onun üçün insanlar bu bütləri düşünmək instrumenti olur. Müqəddəs tarixin dili ilə desək, Allah-taala özünü yaratdığı insanların ağlı və sözləri ilə düşünür, eləcə də onların əli ilə tarixdə nələrisə yapır, ya dağıdır. Onun özünü düşünməsinin ən yüksək aşaması monoteizmdir, Monoteizm çərçivəsində isə Xristianlıqdır. Çünki Yəhudi dininin, İslamın bir Tanrı ideyası Xristianlıqda İisusun mənəvi zənginliyində açılır. Bu anlamda Hegel üçün Xristianlıq dinlərin zirvəsidir.

Böyük filosofun ideyası mübahisəlidir. Ancaq hər halda dinlərin çoxluğuna öz yozumunu verir.

Vatikan sanki Fərabi, Tusi, Hegel yanaşmalarını gözə alaraq, dinlərin ilişgilərini uyqarlaşdırmaq üçün 1962-ci ildə Katolik kilsəsinin İkinci qurultayını çağırdı. Orada "Nostra aetate" (Çağımız) bəyannaməsini qəbul etdi. Bəyan olunan prinsiplərdən biri o idi ki, Katolik kilsəsi fəlsəfənin insan üçün tapdığı köklü məsələlərə türlü dinlərin müxtəlif yollar olduğunu tanıyır. Bu platformada da dinlərin dialoqu olmalıdır.

Sonda bir terminoloji aydınlaşdırma edək. Rus dilinin etgisi ilə bizdə Yəhudi dininə və ya Yəhudiliyə "iudaizm" deyirlər. Bu söz yunancadakı "iudaismos" kəlməsindən götürülüb. Onun yazıya gəlmə tarixi çox qədimdir. Makkaveylərin İkinci kitabında (m.ö. I yüzilə aiddir) Hellenist çoxtanrıçılığından Yəhudiliyi ayırmaq üçün işlədilib. İbrani dilində "iudaizm" "yahudat" şəklindədir, bu üzdən biz kitabımızda iudaizmi yəhudilik və ya yəhudi dini kimi verəcəyik.

"İudeya" ölkə, dövlət adı olduğundan bizə gərəkən sözdür. Onu da russayağı yox, ibranicə olan "Yəhada" ilə əvəz etməyə üstünlük verəcəyik.

## YƏHUDİLİK ÜZRƏ BİLGİLƏR QAYNAĞI OLAN "TANAH"

Yəhudilər müqəddəs kitablarına, əski türkcə desək, qutsal biliklərinə "Tanah" deyirlər. Sözün anlamı Qurandakı kimi "oxu", "qiraət"dir. İşdə o bir kitab deyil, 24-dən çox kitablar "kitabxanasıdır", özündə dünyanın yaranışından tutmuş yəhudi tarixini, peyğəmbərlərinin kimliyini, hünərlərini söyləyən çoxlu kitabı toplayır. Xristianların Əski Anlaşma (əhd etmək, sözləşmə) mənasını verən, İslam gələnəyində isə "Əhdi-ətiq" kimi deyilən kitab bəzi fərqlərlə "Tanah"a uyğun gəlir. Yəni yəhudilərin arasında yaranmış Xristianlıq onlardan "Tanah"ı götürüb üstünə İisusun yaşamından danışan "Xoş soraqlar" anlamını verən Yevangeliyaları (İncilləri) və bəzi başqa kitabları qoyaraq "Bibliya" adında öz kitabını düzəldib. Beləcə, "Əhdi-ətiq"in ("Əski anlaşma"nın) yanında ikinci kitab – "Əhdi-cədid" ("Yeni anlaşma") peyda olub. Təbiidir ki, yəhudilər bu axırıncını özlərinə